# ...Ağla, iydə çiçəyi

## (və ya Sona Çərkəz öyküsü...)

**Masamın üstündə bir kitab var - "Ağla, iydə çiçəyi". Yazarı əzizim Sona xanımdır. Öncə bir Sona xanımın sizə tanıtmaq istəyirəm. Sona xanım Bakı Dövlət Universitetində rus dili və ədəbiyyatı öyrətmənidir. O, tanınmış bir ziyalı ailəsində dünyaya gəlib. Mənim həmkarım olmuş, qardaş qədər sevdiyim Çərkəz bəylə ailə həyatı qurub, onlar baharda görüşüblər, bu böyük sevgidən iki gözəl oğulları dünyaya gəlib. Bu illər ərzində Çərkəz bəy doktorluq tezini bitirib, dosent diplomu aldı. Geniş bir mövzuda elmi iş ortaya qoydu. Süleyman Rəhimov və xalq yaradıcılığı mövzusunda. Gözəl bir bahar günündə isə oğluna toy edib, evinə gəlin gətirdi. Az sonra isə... o məlum olay... avtomobil qəzası. Onunla son dəfə fakültədə, kafedranın önündə qarşılaşdım. Həmişəki kimi Sonasını gözləyirdi. Ona toy gözaydınlığı verib dedim:**

**- Çərkəz müəllim, artıq evdə gəlininiz var. Gedin o sizə qulluq etsin, Sona xanımı rahat buraxın!**

**Çərkəz müəllim özünəməxsus təbəssümlə:**

**- Mən Sonasız gedə bilmərəm. O həmişə yanımda olub, sona qədər də yanımda olacaq. Sonasızlıq mənim sonumdur. Allah ayırmasın! Amma... Ömrünün ən gözəl çağlarını yaşayan həmkarım Çərkəz sevimli Sonasından, canı qədər sevdiyi övladlarından bir andaca ayrıldı, daş qəlbli əzrayıl Çərkəzi sevdiklərindən zülm ilə ayırdı.**

**Arazı ayırdılar,**
**Qum ilə doyurdular.**
**Mən sizdən ayrılmazdım,**
**Zülm ilə ayırdılar.**

Bildirdiyim kimi, hər ikisi Azərbaycanın ən dəyərli universitetində - Bakı Dövlət Universitetində çalışırdılar. Çərkəz bəy folklor, Sona xanım rus dili kafedrasında. Universitetdə hər kəs onları bir yerdə görməyə alışmışdı. Onları bahar birləşdirmişdi, baharda da ayrıldılar... Sanki onların bu müqəddəs bahar sevgisinə nəzər toxundu. Əlinə qələm alıb bir şeir yazmayan Sonanı dərd ozan eylədi. Sonaya o vaxtdan sanki Tanrı tərəfindən vergi verildi. Bir-birindən dəyərli kitablar yazdı. Bəxtiyar Vahabzadə kimi böyük şairimiz Sona xanımın ilk kitabını oxuyub, duyğulanıb, ona qəzet vasitəsilə açıq məktub ünvanladı, yazdıqlarına dəyər verdi və bildirdi ki, "sevincdə duyğular bu qədər önə çıxmır, mən özüm də ən dəyərli əsərlərimi kədərdən yazmışam". Deyirlər ki, ən dərin sevdalar bir gün xəyal olur, unudulur. Sona xanımın bu nəzərə gələn sonsuz sevdası sönməyən atəşə çevrildi. Sona xanım hamımızı heyrətləndirərək, Çərkəzin adını adının yanına götürüb, kimliyində Sona Çərkəz oldu. İndi həyatda cismən yanaşı deyillərsə də, adları əbədi yanaşıdır. Bir üzü qız, bir üzü gəlin Sonamız qəflətən soldu, Çərkəzsiz yaşamını mənasız saydı və

**...Ha yaz gəlsin, çiçək açsın yasəmən,**
**Lalələrin qırov düşsün üstünə.**
**Leysan yağsın gecə-gündüz çəmənə,**
**Sən ki yoxsan, bundan belə, mənə nə?..**

Sona xanım çiçəklər içində bircə iydə çiçəyinin "qəlbinə toxuna" bilmir, çünki Çərkəz bəy iydə çiçəyini çox sevərmiş. Sonuncu dəfə rayona yol gedərkən də qoxladığı və oxşadığı iydə çiçəyi olmuşdu. İllərdir Sona xanım iydələr çiçəkləyəndə onlardan dəstə bağlayıb, Çərkəz müəllimin məzarı üstünə yollanır. Hətta məzarının ətrafında iydə ağacları əkdirib...



Bayaq söylədiyim kimi, Çərkəz dünyasını dəyişənə qədər Sona xanımın belə şair qəlbli olduğunu biz - yaxın ətrafındaklar bilmirdik. Yalnız Çərkəz bu dünyaya əlvida deyəndən sonra insanlar onun könül dünyasının təlatümü ilə üz-üzə qaldı. Onu oxudular, onu duydular, ona yandılar və bəzən qınadılar da. O, öz acı taleyinin dərd dastanını yazdı, bəyaz vərəqlərə səpələdi, yazılarının nöqtəsi göz yaşı oldu. Sona ömrü sönməyən şama çevrildi, həm sabahlar, həm axşamlar yandı və nura qərq etdi Çərkəzin ocağını.

Sona xanım son anda xəstəxanada Çərkəzin söylədiyi "qorxma, yaxşıyam" sözlərini heç unuda bilmir...

**...Son sözün ürək dərdim, gül əkib, tikan dərdim,**
**Sən mənə dəyər verib, hər kəsdən çox istədin.**
**Hara getdik, cüt getdik, qıyma sənsizliyimə,**
**Apar məni özünlə, hara gedirsən belə?..**

Çərkəz üçün ağlayan yalnız onu sevən insanlar deyil, onu iydə çiçəyi də, buludlar da (o gecə), son səfərində ona etibarsız çıxan yollar da ağlayır. Bu yollar onu bir zamanlar sevdiklərinə qovuşdurardı və ya sevdiklərini ona yetirərdi. İndi Sona illərdir Çərkəzsiz gedib-gəldiyi o yolu da suçlu sayır:

**Yollar oldu taleyimin qənimi,**
**O yollarda səadətim itibdi...**
**Sən gedəli bir bağrıqan lalə də,**
**Gözündə yaş həmin yerdə bitibdi.**

Sona xanım Çərkəzin uyuduğu son mənzilə, özü demiş, hər gün bir az yaxınlaşır. Onun əbədiyyət dünyasındakı odasına köçmək, qonağı olmaq, onsuz çəkdiklərini onunla bölüşmək istəyir.

**Həsrət yollarını keçib gələcəm,**
**İsti nəfəsini duymağa sənin.**
**Bir gün də sakitcə köçüb yanına,**
**Əbədi mehmanın olacam sənin.**

Toya tələsirdi o gün Çərkəz... Böyük bacısının sevincinə şərik olmağa gedirdi. Onu da demək istəyirəm ki, ömrü boyu onlar ikisi də anabacılarının, qohum-əqrəbalarının sözün böyük mənasında fədailəri idi. Bakıdan Saatlıya dörd saatlıq yoldur. İllərlə o yolu Sona-Çərkəz xeyirşərə qoşa gedib-gələrdilər. İndi isə Çərkəz müəllim vəfat etdiyi gündən sonra onun məzarı üstünə hər ay Sona xanım tək gedib-gəlir. Yəni Sonanın bir ayağı Çərkəzin uyuduğu məzarlıqdadır. Doğum günlərində, bayramlarda, ümumiyyətlə, onlar üçün məna kəsb edən günlərin hamısında.

**Sənsiz o gün yola çıxdım, məni görüb yol ağladı,**
**Dərdi duyan dostlar kimi tez başımı qucaqladı.**
**İntizardan cadar-cadar köz abğladı ürək yaram,**
**Anam o gün inandı ki, hər şey olub puç, ağladı...**

Deyir, bir ay getməsəm, o ay mənim ömrümdən deyil... Bu sözlər bizə ulu Mövlananın dediyi bu cümləni xatırlatdı: "Bir gün Məcnun Leylaya məktub yazmaq istəyir. Qələm-kağız götürür, düşünür... Leyla mənim qəlbimdə, gözlərimin qarşısında, anılarımdadır... Mən məktubu kimə yazıram? Kağızı cırır, qələmi qırır". Lakin Sona belə etmədi. Yazdı və bu gün də yazır... O, bu ülvi ailə münasibətini anlada-anlada yazmaqdadır. O, özü müqəddəs sevginin unudulmadığını hər kəsə sübut edib, örnəyə çevrildi.

Canım Sonam, Çərkəz həsrətindən yazayaza sən həsrətə deyil, sevgiyə dönmüsən. Bu gün Azərbaycanda Sona Çərkəz deyiləndə, insanlar canlı məhəbbət heykəlini göz önünə gətirirlər. Amandır, Sonam mənim, bu müqəddəsliyə həsrət qoyma bizləri, tələsmə Çərkəzin yanına köçməyə. Çünki sən, incimə Sonam, Çərkəzin edə bilmədiklərini və bəlkə də edə bilməyəcəklərini də elədin. Onun balalarının min bir əzabına qatlaşaraq, sözün böyük mənasında kipriyinlə od götürdün. Nəvələrinə həm nənə, həm baba əvəzi oldun. Odur ki, onu bu dünyada sevindir varlığınla.

Sona xanım bəzən hisslərini və düşüncələrini bayatılara çevirib insanlara söyləyir:

**Eləmi qara baxtım,**
**Qaradan-qara baxtım.**
**Sağalmaz yarasan sən,**
**Köksümdə qara baxtım.**

Və ya:

**Əzizim, sənə sarı,**
**Bəxtimin sən hasarı.**
**Öləndə qibləm ol ki,**
**Qoysunlar sənə sarı.**

Xatirimdədir, o xoşbəxt günlərdə - Sona xanımın ad günündə (mən də Yasamaldakı evlərində çox olardım) Çərkəz müəllim o zaman "Passaj" adlandırılan bazara gedər və onun çox sevdiyi yasəmənlər alardı öz Sonasına. İndi Sona xanım yasəmənlərdən də incik düşüb:

**Quruyaydı kaş əllərim o günü,**
**Məzarına yasəmənlər düzürdü.**
**Hər il mənə pay verdiyin çiçəklər,**
**Bu gün mənim göz yaşımda üzürdü...**

Sona xanım, əzizim! O göz yaşları adi göz yaşları deyil, dərdə qalib gələn, kədəri məğlub edən zəfərdən doğan göz yaşlarıdır. Cümləcümlə oxuduğum kitabından seçdiyim bu şeir parçaları məni göz yaşlarıma boğsa da, səni gözlərimdə bir az da ucaltdı. Çərkəzin sevdiyi və son qoxladığı iydə çiçəklərindən gileyin də gözlərimdən yayınmadı. Bu gileyi bu formada ancaq bizim Sonamız edə bilərdi.

**Ağla, iydə çiçəyi,**
**Mənlə sən ağla barı.**
**Ağla, qoruyammadıq,**
**Nə mən, nə sən o yarı...**

Canım Sonam, sən onu cismən qoruya bilmədin, lakin ruhən o qədər uca tutdun və qorudun ki... Həm də tək özün üçün deyil, bütün Çərkəzi sevənlər üçün, onun övladları üçün, min bir əzabla hərarətini qoruduğun ocağı üçün, qohum-əqrəbası üçün və bu gün Çərkəzin adını daşıyan gözəl nəvə Çərkəz üçün. Sən öz yazdıqlarınla, yaratdıqlarınla və yaşam tərzinlə əbədi olaraq Sona Çərkəz adlı elə bir heykəl ucaltdın ki, bu heykəl dünya durduqca var olacaq. Bu da Çərkəzin yubileylərini yüksək səviyyədə keçirərək, onun yoxluğundan sonra bütün ailəsinin yükünü kövrək çiyinlərinə götürərək, ayrılığa qalib gələn Sona xanım haqqında bir öykü...

Mən bunu bugünkü "Kümbət" dərgisi vasitəsilə qardaş Türkiyədə çalışdığım üçün buradakı oxuculara çatdırmağa çalışdım. Nail oldummu, olmadımmı, bunu onlar söyləyəcəklər.

**P.S. Bu yazı Çərkəz müəllimin həmkarı, uzun illər Bakı Dövlət Universitetinin Filologiya fakültəsində onunla birgə çalışan, bu gün isə qardaş Türkiyədə yaşayan və orada fəaliyyətini davam etdirən professor Tamella Əliyevanın qələminin məhsuludur. Çərkəz müəllimin vəfatından sonra yazılan yüzlərlə yazılardan biri olan bu dost yazısı kövrək bir essedir. Bu gün Çərkəz müəllimin ad günü ərəfəsində Çərkəz müəllimin cəfakeş Sonası bu yazının əlyazmasını bizə təqdim etdi və biz də bu yazını Sona xanımı yaxşı tanıyan oxucularımıza təqdim etməyi qərara aldıq.**

**Tamella Əliyeva,**
**Professor, Əskişəhər, Osman Qazi Universiteti**

ədalət.-2017.-21 aprel.-S.3.